**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təkliflərinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 1, maddə 58; 2012, 1, maddə 34, 10, maddə 1007; 2014, 10, maddə 1329; 2015, 12, maddə 1562) ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.3-1-ci, 2.4-1-ci, 2.5-1-ci, 2.5-2-ci, 2.5-3-cü, 4.4-1-ci, 4.11-1-ci, 4.11-2-ci, 4.11-3-cü və 4.14-1-ci bəndlər əlavə edilsin:

"2.3-1. Dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupları yaradılır.

2.4-1. Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olan uşaqlar qəbul edilirlər.

2.5-1. Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:

2.5-1.1. qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;

2.5-1.2. şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq.

2.5-2. Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

2.5-3. Uşaqların sayı 10-dan az olduğu halda, məktəbəhazırlıq qrupları Azərbaycan Respublikası Təhsil Nazirliyinin regional təhsil idarələrinin razılığı əsasında yaradılır.

4.4-1. Məktəbəhazırlıq qruplarına qəbul üçün aşağıdakı sənədlər tələb olunur:

4.4-1.1. məktəbin direktorunun adına ərizə;

4.4-1.2. uşağın mübadilə vərəqəsi;

4.4-1.3. uşağın doğum haqqında şəhadətnaməsinin surəti;

4.4-1.4. uşağın 3x4 ölçüdə 2 ədəd fotoşəkli.

4.11-1. Məktəbəhazırlıq qruplarında məşğələlər oktyabrın 1-də başlayır və mayın 31-də başa çatır.

4.11-2. Məktəbəhazırlıq qruplarında dərs ili iki yarım ilə bölünür:

4.11-2.1. I yarım il: 1 oktyabr - 26 yanvar;

4.11-2.2. II yarım il: 1 fevral - 31 may.

4.11-3. Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

4.11-3.1. 5 gün payız tətili (16-20 noyabr);

4.11-3.2. 5 gün qış tətili (27-31 yanvar);

4.11-3.3. 5 gün əlavə tətil (1-5 may).

4.14-1. Məktəbəhazırlıq qruplarında uşaqların məktəbə hazırlığı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbə hazırlığın təşkili Qaydaları"nın 4-cü hissəsinə əsasən həyata keçirilir.".

2. 4.14-cü bənddə "35" rəqəmi "30" rəqəmi ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 11 iyul 2016-cı il
272